# Sosial intellektin ölçülməsi probleminə dair psixoloji yanaşmalar

**Ceyhunə Ceyhun qızı Dəmirova**
*Azərbaycan Dillər Universitetinin*
*Psixologiya kafedrasının doktorantı*
**E-mail:** Ceyhune-91@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** sosial intellekt, intellekt testləri, Tromso sosial intellekt testi, MESQ metodikası
**Ключевые слова:** социальный интеллект, тесты интеллекта, тест социального интеллекта Тромсо, методология МЕСР
**Key words:** social intelligence, intelligence tests, Tromso social intelligence test, the MESİ methodology

Elmi ədəbiyyatları təhlil edərkən intellekt probleminin araşdırılması zamanı nəzəri və praktik problemlərinin həllinə baxıldıqda, F.Haltondan başlayaraq D.Qolemana qədər bir çox alimin intellekt probleminin təhlili ilə bağlı öz nəzəriyyələrini irəli sürdüklərinin şahidi oluruq. 1869-cu ildən başlayaraq F.Haltonun qabiliyyətlərin irsən keçməsi faktını təsdiqləmək üçün başlatdığı tədqiqatları, 1904-cü ildə A.Binenin də təşəbbüsü ilə intellektin praktik problemlərinin həllinə yönələrək müasir dövrdə bir çox intellekt testləri ilə məşhurlaşaraq qarşımıza çıxmaqdadır. Məhz həmin illərdə intellekt terminin daha da inkişaf etməkdə olduğu bir müddətdə, intellektin başqa növlərinin də ola biləcəyi məsələsi ortaya çıxmaqda idi. Belə bir vaxtda ilk dəfə 1909-cu ildə C.Dyu tərəfindən akademik termin kimi sosial intellekt termini işlədilmişdir. Dyu özünün "Təhsildə əxlaqi prinsiplər" adlı kitabında sosial intellekti "sosial situasiyanı qavrama və müşahidə gücü" olaraq müəyyən etmişdir [1, s. 43]. Daha sonra 1920-ci ildə E.L.Torndayk tərəfindən bu sosial intellekt anlayışı praktik olaraq elmi ədəbiyyatda aydınlaşdırıldı E.L.Torndayk insan intellektinin ölçülməsi üçün test tapmalı idi. Testin daxili faktorlarını *Tamamlama, Arifmetik, Lüğət, Təlimatlar* olmaqla dörd xüsusiyyətdən ibarət ümumi bir model formalaşdırdı. Daha sonra bu model bütün intellekt testlərinə şamil olundu və Torndayk tərəfindən bölünən sosial, mexaniki və mücərrəd intellekti qiymətləndirməyə istiqamətləndi. Beləliklə, Torndayk sosial intellektə belə bir tərif vermişdir. Sosial intellekt "insanları anlama və idarə etmə bacarığı, insan münasibətlərində ağıllı formada davranmaq" deməkdir. Torndaykın tərifi bir çox tədqiqatçı tərəfindən müəyyən qədər modifikasiya olunsa da, eyni zamanda həmin tədqiqatçılar tərəfindən də elmi yeniliklərin gətirilməsinə səbəb oldu [2, s. 228].

Sosial intellekt barədə tədqiqatların meydana çıxması ilə yeni problemlər ortaya çıxdı. Bu problemləri Tromso universitetinin psixoloqları David H. Silvera, Monika Martinussen və Tove İ. Dahl 4 başlıq altında topladı. İlk olaraq sosial intellektin tamamilə müstəqil bir strukturunun olub-olmaması məsələsinə toxundular. Belə ki, məlum olduğu üzrə R.Sternberq, M.E.Ford, Bernşteyn və bu kimi bir çox tədqiqatçının sosial intellektin akademik intellektdən fərqli olaraq ayrı bir struktura məxsus olub-olmaması, onun psixometrik tərəflərinin olması, eyni zamanda psixoloji cəhətdən perspektivlərin mümkünlüyü ilə bağlı ortaya çıxan suallara cavab axtarmaq bu məsələnin ən vacib tərəfləri idi. İkinci tərəfdən ortaya çıxan problem isə müxtəlif

tədqiqatçıların E.Torndaykdan başlayaq, C.Qilford, R.Sternberq də daxil olmaqla Forda qədər illər ərzində sosial intellektin strukturunun birmənalı qarşılanmaması və fərqli fikirlərin, mülahizələrin irəli sürülməsi idi. Üçüncü problem isə sosial intellektin strukturunun çox faktorlu olması məsələsinin meydana çıxması idi. Bununla bağlı ilk çox faktorlu nəzəriyyənin yaradıcıları olan tədqiqatçı alimlər C.Kozmitski və O.P.Con idi.

Nəzəri cəhətdən üçüncü problemin həllinə olan yanaşmalar birinci problemi həll etməyə kömək edir. Aydın görünür ki, sosial intellektin bəzi komponentləri, yəni bilik və mühakimə etmək bacarığı baxımından, ümumi intellekt ilə yaxın əlamətlər kəsb etməsi, lakin ekstraversiya kimi şəxsiyyətin xarakter tipinə uyğun gəlməməsi ehtimalı gözlənilir. Əksinə digər komponentlər, yəni sosial vəziyyətlərdə aktiv fəaliyyət göstərmək bacarığı ekstraversiya ilə daha çox, ümumi intellekt ilə isə daha az əlaqəli ola bilər [3, s. 313].

Tədqiqatçıların fikrincə, sosial intellektin sonuncu problem onun ölçülməsi ilə əlaqədardır. A.Binedən başlayaraq illər boyunca intellektin ölçülməsi məqsədilə bir çox psixometrik testlər hazırlanmışdır. Lakin, sosial intellekt ilə əlaqədar testlərin hazırlanması məsələsi isə onun daha əvvəlki problemlərinin həll edilmədiyindən, həmçinin hər hansısa bir testin hazırlanması üçün lazım olan psixometrik tələblərin yerinə yetirilməsinin çətinliyi səbəbi ilə ümumi intellektə nisbətən daha azdır.

Silvera və onun əməkdaşlarının fikrincə, sosial intellektin ölçülməsi ilə əlaqədar iki problem vardır. Birincisi, testlərin əksəriyyətinin həyata keçirilməsi çətinlik və vaxt baxımından problem yaradır. İkincisi, ən vacibi isə sosial intellekt testlərinin müxtəlif tipləri (öz-özünə hesabat vermə, müşahidəçilər tərəfindən davranışın qiymətləndirilməsi) arasında yüksək asılılıq yoxdur [3, s. 314].

Bütün bunlar daha əvvəl də dediyimiz kimi sosial intellektin dəqiq bir tərifinin olmaması, bir çox metodikasının etibarlı olub-olmamasını yoxlamağın qeyri-mümkünlüyü səbəbindən yaranmışdır. Lakin, bütün bunlara baxmayaraq sosial intellekt ilə əlaqəli bu günədək meydana çıxan bir çox testlər və ya metodikalar vardır. K.Vasilova və F.Baumqartner onları 4 başlıq altında aşağıdakı kimi qruplaşdırmışdır [4, s. 44-45]:

Cədvəl 1.1. Müvəffəqiyyət əldə etməyə istiqamətlənən və ümumi intellekt testləri ilə oxşarlıq kəsb edənlər

| Üsul | Tədqiqatçılar (il) | Subtest, Faktor və Sİ strukturu |
|---|---|---|
| George Vaşinqton SİT | Hunt (1928) və Moss (1931) Omvake (1949) və Vudvard (1955) | -Sosial situasiyada mühakimə etmə<br>-Üz və adları xatırlama<br>-İnsan davranışlarını müşahidə etmə<br>-Sözlərin arxasından ruhi vəziyyətin tanınması<br>-Üz ifadələrindən ruhi vəziyyətin tanınması<br>-Sosial informasiya<br>-Yumor hissi |
| Altı faktorlu SİT | O`Sullivan (1966) | -Davranış mexanizmlərini dərketmə<br>-Davranış kateqoriyalarını dərketmə<br>-Davranış əlaqələrini dərketmə<br>-Davranış sistemlərini dərketmə<br>-Davranış dəyişmələrini dərketmə<br>-Davranışsal dolayı yolların dərkedilməsi |

| | | |
|---|---|---|
| Sternberq üçtərkibli SİT | R.Sternberq və b. (1993) | -Analitik qabiliyyətlər<br>-Yaradıcı qabiliyyətlər<br>-Praktik qabiliyyətlər |

Cədvəl 1.2. Özünüqiymətləndirmə və sosial bacarıq kimi dəyərləndirilənlər.

| Üsul | Tədqiqatçılar (il) | Subtest, Faktor və Sİ strukturu |
|---|---|---|
| Matson Uşaq və Yeniyetmələrdə Sosial Bacarıqları Qiymətləndirmə testi | J.L.Matson, A.F.Rotatori, və V.J. Helsel (1983) | -Adekvat sosial bacarıqlar<br>-Qeyri-adekvat iddia səviyyəsi<br>-Tez özündən çıxan, sözgötür-məyən<br>-Özünə çox güvənmək<br>-Paxıllıq, geri çəkilmə |
| Sosial Bacarıqları Qiymətləndirmə testi | F.M.Qreşham və S.N.Elliot (1990) | -Sosial bacarıqlar<br>-Problemli davranış<br>-Akademik səriştəlilik<br>-valideyn dəstəyi |
| Sosial Bacarıqların İnventarizasiyası | M.Lor, R.P.Yuniss və E.K.Stefik (1991) | -Sosial bacarıqlar<br>-Empatiya |

Cədvəl 1.3. Başqaları tərəfindən qiymətləndirilən sosial intellekt testləri

| Üsul | Tədqiqatçılar (il) | Subtest, Faktor və Sİ strukturu |
|---|---|---|
| Sosial-səriştəlik Bacarığı–valdieyn versiyası | A.Korrigan (2003) | -Ünsiyyət bacarıqları<br>-Emosional tənzimləmə bacarıqları |
| Həmyaşıdın Sosial İntellektini Qiymətləndirmə testi | K.Bjorkvist, K.Osterman, A.Kaukianen, K.Lagerspetz, və S.Forsblom (1995) | -Başqalarını qavrama<br>-Sosial çeviklik<br>-Məqsədinə çatmaqda uğurlu olmaq<br>-Davranışsal nəticələr |
| | K.T.Vonq, J.D.Dey, S.E.Maksfel və N.M.Meyera (1995) | -Sosial qavrama<br>-Sosial fərasət<br>-Sosial bilik |

Cədvəl 1.4. Davranışın qiymətləndirilməsi üzrə sosial intellekt testləri

| Üsul | Tədqiqatçılar (il) | Subtest, Faktor və Sİ strukturu |
|---|---|---|
| Hərəkət Tezliyi Yanaşması | D.M.Buss və J.H.Kraik (1983) | -Hərəkətlərin yaranması<br>-Normativ hərəkətlərin qiymətləndirilməsi<br>-Prototip davranışların dəyərləndirilməsi<br>-Özünü və həmyaşıdlarını dəyərləndirmə |
| Sosial Səriştəlilik Video testi | U.Funke və H.Skuler (1993) | |

| | | |
|---|---|---|
| | Hendriks (1969) | -Cəhd ilə əlaqəli mexanizmlərin fərqli istehsalı<br>-Cəhd ilə əlaqəli kateqoriyaların fərqli istehsalı<br>-Cəhd ilə əlaqəli münasibətlərin fərqli istehsalı<br>-Cəhd ilə əlaqəli sistemin fərqli istehsalı<br>-Cəhd il əlaqəli dəyişmələrin fərqli istehsalı<br>-Cəhd ilə əlaqəli dolayı yolların fərqli istehsalı |

Sosial intellektin ölçülməsi ilə əlaqədar təkmilləşdirilmiş metodikalar əlbəttə ki, yuxarıda sadalananlardan ibarət deyildir. Elmi tədqiqatlar genişləndikcə həmçinin, sosial intellektin izahı və onun ölçülməsi ilə əlaqədar metodikaların da sayı durmadan artmaqdadır. Bu səbəbdən Norveçin Tromso Universitetinin əməkdaşları David H. Silvera, Monika Martinussen və Tove İ. Dahl öz dillərində sosial intellektin ölçülməsi ilə əlaqədar metodikanın yoxluğu səbəbi ilə yeni bir sosial intellekt testi formalaşdırmağı qərara aldılar.

Qeyd edək ki, ilk növbədə bunun üçün J.F.Kantor və N.Kihlstormun nəzəriyyəsindən istifadə edilmişdir. Alimlərin fikrincə sosial intellekt-fərdi dünya haqqında biliklər fondudur [5, s. 360].

Tədqiqatçılar ilk növbədə Tromso Universitetinin psixologiya fakültəsinin 14 üzvünə sosial intellektin strukturunu necə müəyyən edərdiniz? başlığı altında 27 qabiliyyəti özündə əks etdirən anket təqdim etmişdir. Daha sonra anketdən alınan nəticəyə əsasən məlum olmuşdur ki, sosial intellekt - başqa insanları və müxtəlif sosial situasiyalara necə reaksiya verəcəklərini anlamaq qabiliyyətidir. Eyni zamanda başqalarını anlamaq, başqalarının istəklərini nəzərə almaq və başqalarının reaksiyalarını qabaqcadan təxmin etmək qabiliyyəti anketdən ən yüksək bal almışdır. Daha sonra sosial intellektin idraki və davranışsal ölçülərini də nəzərə alaraq 103 maddədən ibarət sorğu hazırlanmışdır. Sorğudan alınan kəmiyyət nəticələrinə əsasən, hər biri 7 maddədən ibarət üç ayrı faktor altında 21 maddəlik özünü təyinetmə olaraq bilinən sosial intellekt testi hazırlanmışdır. Testə verilən cavabdan asılı olaraq ən aşağı bal 1 (bu məni az təsvir edir) ilə 7 (bu məni güclü təsvir edir) arasında dəyişməkdədir. Nəticə etibarilə tədqiqatçılar sosial intellekt testinin aşağıdakı üç faktorunu müəyyən etmişlər [3, s. 313-315]:

*Sosial bilik prosesi* - insan münasibətlərində sözlü və ya sözsüz mesajları anlama, empatiya qura bilmək, qarşındakının dedikləri ilə yanaşı, demək istəyib də deyə bilmədiklərini anlamaq, öz davranışlarının qabaqcadan başqasına nə hiss etdirəcəyini təxmin edə bilmək, ünsiyyət zamanı qarşındakının bədən dilindən, mimikalarından səndən nə istəyəcəyini anlaya bilmək bacarıqlarını özündə əks etdirir. *Nümunəvi maddə:* Çox vaxt insanların mimikalarından, bədən dillərindən və s. realda nə demək istədiklərini anlaya bilirəm. Faktorun daxili tutarlılığı 0.79 olaraq hesablanmışdır.

*Sosial bacarıqlar* - tanımadığı insanlara, sosial situasiyalara asanlıqla uyğunlaşa bilmək, ilk dəfə tanıdığın insanlarla asanlıqla uzlaşa bilmək, yeni və maraqlı mövzularla söhbəti ələ ala bilmək kimi bacarıqları özündə əks etdirir. Bu faktoru sosial bilik prosesinin davranış səviyyəsinə keçirilməsi kimi də izah edə bilərik. Zamanla qazanılan sosial məlumatların praktik olaraq bacarıqlarla üzə çıxması kimi müşahidə edə bilərik. *Nümunəvi maddə:* Yeni tanış olduğum insanlarla yaxşı dostluq münasibətləri qurmaqda bacarıqlıyam. Faktorun daxili tutarlılığı 0.85 olaraq hesablanmışdır.

*Sosial anlama* - situasiyaya, yerə və zamana görə uyğun davranış nümunəsini göstərmək, nə zaman danışıb, nə zaman susacağını bilən, insanların davranışlarını, xarakterlərini nəzərə alaraq onlar ilə necə davranması gərəkliyini bilmək və nəticə etibari ilə qarşısındakı insana necə təsir edəcəyini bilmək bacarıqlarını özündə əks etdirir. Sosial anlamanın tək özəlliyi başqasının davranışına uyğun olaraq öz hərəkətlərini tənzimləmək deyil, eyni zamanda sosial anlama səviyyəsi yüksək olan insanların öz daxili dünyasını yaxşı anlaması, tanıması, bilməsi və bu əsasda özünün davranışlarının fərqində olması çox vacibdir. Çünki, öz davranışlarının fərqində olan bir şəxs artıq ona uyğun qarşısındakının da onun davranışlarına necə reaksiya verəcəyinin fərqində olub ona uyğun davranış nümunəsini seçir. Nümunəvi maddə: insanlar səbəbini izah etməyimə fürsət vermədən mənə hirslənirlər. Faktorun daxili tutarlılığı 0.72 olaraq müəyyən edilmişdir. Metodikanın başqa testlər ilə uyğunluq kəsb etməsi arasındakı əlaqəni müəyyən etmək üçün isə Marlove-Krovne tərəfindən formalaşdırılan Sosial Arzu Edilirlik Şkalası ilə baxılmış və 0.22 korrelyasiya əmsalı tapılmışdır.

Sosial intellektin psixometrik tərəflərinin inkişafı eyni zamanda yeni-yeni intellekt testlərinin də meydana çıxmasına səbəb oldu. Bu testlərdən biri də Slovakiyanın Presov Universitetinin, İdarəetmənin Psixologiyası kafedrasının əməkdaşları Miroslav Frankovski və Zuzana Birknerova tərəfindən hazırlanan *MESQ (Manipulyasiya, Empatiya və Sosial Qıcıqlanma )* və ya *MESİ (Manipulation, Emphaty and Social İrritability)* metodikasıdır.

Tədqiqatçılar sosial intellekt barədə apardıqları elmi araşdırmalar sayəsində 4 məsələyə diqqət çəkirlər:

1) Oxşar və fərqli elm sahələri ilə əlaqədar olaraq sosial intellektin tərifinin dəqiqləşdirilməsi və fərqləndirilməsi.

2) Sosial intellekt anlayışının etik ölçüsü.

3) Sosial intellektin struktur elementlərinin təhlili.

4) Sosial intellektin öyrənilməsi və aşkarlanmasında şəxsiyyət və psixometrik yanaşma.

Bu metodika tədqiqatçılar 1995-ci ildə K.Bjorkvist, K.Österman, A.Kaukianen, K.Lagerspetz və S.Forsblom tərəfindən hazırlanmış Həmyaşıdın Sosial İntellektini Qiymətləndirmə testindən *(PESİ-Peer-Estimated Social İntelligence Test)* qaynaqlanaraq hazırlanmışdır. Test 21 maddədən və 3 faktordan ibarətdir. Testin suallarına verilən hər bir cavab 0 (heç vaxt) və 4 (tez-tez) bal arasında dəyişir. Test həm ümumilikdə sosial intellekti, həm də ayrıca hər bir şkalanı fərdi ölçmək xüsusiyyətinə sahibdir. Aparılan faktor təhlili əsasında testin daxilində aşağıdakı üç ayrı faktor müəyyən olmuşdur:

*Manipulyasiya* - bu faktorda yüksək bal alan insanlar başqalarını demək olar ki, hər şeyi etməyə razı sala bilmək gücünə sahibdirlər, başqalarının həyatından, onların bacarıqlarından öz mənfəəti üçün istifadə edə bilir və bu yolla başqalarını öz tərəflərinə çəkməyi bacarırlar. Faktorun daxili tutarlılığı 0.85 olaraq hesablanmışdır.

*Empatiya* - bu faktorda yüksək bal alan şəxslər başqalarının hisslərini, niyyətlərini və zəif cəhətlərini görməyi bacarır. Yeni insanlara uyğunlaşa bilir, onların istəklərinin nə olduğunu təxmini müəyyən edə bilir və onların istəklərini yerinə yetirməyə çalışır. Faktorun daxili tutarlılığı 0.78 olaraq hesablanmışdır.

*Sosial qıcıqlanma* - bu faktorda yüksək bal alan şəxslər başqaları ilə ünsiyyətdə olarkən qarşılarındakı insanın xarakterinə, davranışlarına uyğunlaşmaq onlar üçün bir problemə çevrilir. Həmçinin qarşısındakı insanın davranışları, keçirdiyi hissləri, zəif cəhətləri, gözləntiləri onları təəccübləndirir və qabaqcadan necə reaksiya verəcəklərini təxmin edə bilmədikləri üçün öz davranışlarında olan normanı gözləmir və bu zaman qarşı tərəfin reaksiyası ilə öz reaksiyası arasında müəyyən çaşqınlıq yaşayırlar. Qarşısındakına necə uyğunlaşacaqlarını bilmədikləri

üçün kimsə onlar üçün nəsə etmək istədikdə, gərginlik və narahatlıq hissinin yaranmasına gətirib çıxardır. Faktorun daxili tutarlılığı 0.71 olaraq hesablanmışdır [6, s. 90-94].

Aparılan təhlil göstərir ki, sosial intellektin ölçülməsi probleminə dair tədqiqatçılar tərəfindən elm inkişaf etdikcə yeni yanaşmalar irəli sürülmüşdür. Xüsusilə bu yanaşmaların əksəriyyəti sosial bacarıqların ölçülməsi ilə əlaqədardır. Bizim araşdırmamızın məqsədi bu yanaşmaları ümumi bir siyahıda toplamaq və geniş izahatını verməkdir. Təhlil nəticəsində Tromso sosial intellekt testinin faktorları olan sosial bilik prosesi, sosial bacarıq, sosial anlama və MESQ metodikasının faktorları olan empatiya, manipulyasiya, sosial qıcıqlanma kimi anlayışlara geniş elmi izah verilmişdir. Son olaraq qeyd edək ki, əgər bu məqalədə olmayan və qruplaşdırılan sosial intellekt testləri siyahısına daxil olmayan hər hansısa sosial intellekt testi varsa, bu, o demək deyil ki, həmin test istifadə üçün adekvat deyil. Elm inkişaf etdikcə ölçmə metodlarının təkmilləşdirilməsi və sayı da durmadan artmaqdadır. Belə bir informasiya çoxluğunda bütün metodikaları bütün dövrlər üçün dəyişməz olduğunu iddia edərək, bir araya toplamaq heç də asan deyildir. Lakin, ən azından dəqiq elmi nəticələrə söykənən bir neçə metodikanı bu siyahıya daxil edərək, tədqiqatçılar üçün az da olsa əlçatan informasiya mənbəyi və elmi istiqamət vermiş olduq.

**Məqalənin aktuallığı.** Sosial intellekt barədə tədqiqatların meydana çıxması yeni problemlərin yaranmasına gətirib çıxardı. Problemin həllinin müasir dövrdə daha böyük əhəmiyyət daşıdığını və məqalənin də məhz bu mövzuya həsr olunduğunu nəzərə alsaq, onu aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə sosial intellektin ölçülməsi probleminə dair xarici ölkə psixoloqlarının yanaşmaları verilir, müəllifin apardığı tədqiqatın nəticələri təhlil edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tədqiqatçı-alimlər, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. J. Dewey. Moral principles in education. Houghton Mifflin. 1909.

2. Thorndike, E. L. Intelligence and its use. Harper's Magazine. 1920, 140, pp. 227-235.

3. Silvera, D. H., Martinussen, M., & Dahl, T. I. The Tromso Social Intelligence Scale, a self-report measure of social intelligence. Scandinavian Journal of Psychology, 2001, 42, pp.313-319.

4. Kihlstrom J.F., & Cantor, N. Social Intelligence. In R.J. Sternberg (Ed.), Handbook of intelligence Cambridge, U.K.: Cambridge University Press, 2000. (2) pp.359-379.

5. Vasil'ová, K. ve Baumgartner, F. Why Is Social Intelligence Difficult to Measure. Individual and Society, 2004, 8 (4), pp.43-49.

6. Miroslav Frankovský and Zuzana Birknerová. Measuring Social İntelligence-MESİ Methodology. Asian Social Science, 2014. 10 (6), pp. 90-97.

**Дж.Дж. Дамирова**

## Психологические подходы к проблеме социального интеллектуального измерением

## Резюме

На освоении наших научных исследований в области социального интеллекта стало ясно, что возникли некоторые проблемы с научным объяснением этого понятия. Из-за отсутствие конкретной методики измерение социального интеллекта возникли определение трудности у специалистов изучающих проблему социального интеллекта. Однако со временем предметная область современных исследований расширилась, и были разработаны новые измерения. Таким образом, применение наиболее точных методик, исследование социального интеллекта, особенно теста Тромсо и методики МЕСР, резюмированы в статье.

**Dj.Dj. Damirova**

## Psychological approaches to the problem of social intelligence measuring

## Summary

Based on our scientific research on social intelligence, it became clear that some problems have arisen with the scientific explanation of this notion. As a result, these problems have caused some difficulties for many researchers who want to measure social intelligence due to the lack of specific methods. However, over time, the subject area of modern research has expanded and new measurements have been developed. Thus, the importance of the application of most important methods related to the measurement of social intelligence, in particular the application of the Troms Social İntelligence Test and the MESQ method, is summarized in an article.

**Redaksiyaya daxil olub:** 07.01.2020